**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA DİNAMİK İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ BEYNƏLXALQ KAPİTALDAN İSTİFADƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5310.01 - Dünya iqtisadiyyatı |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **İsmayıl İbrahim oğlu Məmmədov** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Koorperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Mübariz M.Bağırov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Günay Tanrıverdi qızı Paşa**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Ayxan Nizami oğlu Ayvazlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ imza

Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ____________ imza

iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ____________ imza

iqtisad elmlər doktoru, professor
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ötən əsrin ikinci yarısından beynəlxalq aləmdə geniş vüsət alan inteqrasiya və qloballaşma hal-hazırda özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Qeyd edilən proseslərin dərinləşməsi müasir dövr iqtisadi münasibətlərinin ən xarakterik xüsusiyyətlərindən birinə çevrilmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılması nəticəsində Azərbaycan müstəqillik əldə etdi.

Yeni yaranmış müstəqil dövlətə isə heç bir xarici dövlət nə borc, nə də yardım vermək istəmir, eyni zamanda investisiya qoyuluşlarına da maraq göstərmirdilər. Həmin dövrdə beynəlxalq kapitalın cəlb edilə biləcəyi yeganə sektor neft sektoru idi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycan tarixində yeni bir mərhələ başlandı. Bu müqavilə əsasında iqtisadiyyatın dirçəldilməsində müstəsna rol oynayan "Neft strategiyası" reallaşdırılmağa, xarici ölkələr və transmilli şirkətlərlə əlaqələr yaranmağa başladı. İqtisadi siyasətdə "Açıq qapı" doktrinası dominant rolunu oynadı. Nəticədə dünyanın bir sıra inkişaf etmiş ölkələri və çoxsaylı transmilli şirkətləri ölkəmizin iqtisadiyyatına vəsaitlər qoymağa başladılar.

Beynəlxalq kapital hesabına ölkənin neft və qaz kompleksində əsaslı kapital qoyuluşları vasitəsi ilə yeni texnika və texnologiyalarla, avadanlıqlarla təminat nəticəsində bu kompleks dünya standartlarına uyğun şəklə gətirildi. Sonra isə bu kompleksdə əldə olunmuş gəlirlər hesabına qeyri-neft sektorunun inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməyə başladı.

Beynəlxalq kapitaldan istifadə vasitəsilə iqtisadiyyatda genişmiqyaslı diversifikasiya siyasəti həyata keçirilir. Bununla bağlı zəruri məsələlər öz əksini 2012-ci ildə qəbul olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış konsepsiyası"nda və 2016-cı ildə qəbul olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə tapmışdır. Birinci sənəddə ölkədə beynəlxalq kapital vasitəsilə həyata keçirilə bilən diversifikasiya siyasətinin, prosesinin ən vacib istiqamətləri, parametrləri, məqsəd və vəzifələri əks olunmuşdur. Diversifikasiyanın həm üfüqi, həm şaquli, həm

əlaqəli, həm də əlaqəsiz formalarının tətbiq edilməsinin əsas prinsipləri də bu sənəddə öz əksini tapmışdır.

İkinci sənəddə isə ölkədə aparılan makro və mikrosəviyyəli iqtisadi siyasətdə beynəlxalq kapitaldan istifadənin səmərəli mexanizmlərini tətbiq etməklə maliyyə, bank, sığorta bazarının daha da inkişaf etdirilməsi, təkmilləşdirilməsi məsələləri diqqət mərkəzinə çəkilmişdir. Ölkə iqtisadiyyatında reallaşdırılan strateji layihələrin səmərəli nəticələrini əldə etmək üçün çoxsaylı və məzmunlu tədbirlər həyata keçirilir.

Azərbaycan dünyaya nümunə olacaq daha bir layihəni həyata keçirməyə hazırlaşır: "İşğaldan azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər müasir trendə uyğun işlənir və qabaqcıl texnologiyaların tətbiqi ilə reallaşdırılacaq".

İşğaldan azad edilən ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi, investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi həyata keçrilməlidir.

Beynəlxalq kapitalın cəlb edilməsi, dinamik inkişafın təmin edilməsində onun rolu, mahiyyəti, nəzəri-metodoloji əsasları ilə bağlı məsələlərə həm dünya iqtisadi ədəbiyyatlarında, həm Azərbaycan alimlərinin, həm də postsovet ölkələrinin alimlərinin əsərlərində, tədqiqatlarında rast gəlmək olur. Belə ki, klassik iqtisadçılardan A.Smitin, D.Pikardonun, C.Millin, V.Ohlinin, E.Xekşerin, R.Nursenin, K.İversenin, C.Keynsin, C.Qobsonun, J.Sayanın,

A.Marşalın, A.Valrasın, L.Domarın, F.Maxlupun, R.Aronun və başqalarının əsərlərində beynəlxalq kapitalın mahiyyəti, məzmunu və nəzəri məsələlərinə onun tətbiqinin sosial-iqtisadi nəticələrinə və s. dair geniş tədqiqatlara rast gəlinir.

Eyni zamanda rus iqtisadçıları olan B.A.Rayzberqin, A.Ş.Lozovskinin, E.B.Staredubçovanın, A.İ.Dobrininin, A.S.Bulatovun, N.N.Livensovanın, A.B.Borisovun, R.İ.Xasbulatovun, V.A.Stepanovanın, E.A.Zvonovanın və başqalarının əsərlərində beynəlxalq kapitalın investisiya, kreditlər, birbaşa investisiyalar və s. formada tətbiq olunması, səmərəliliyi, onun tətbiqi mexanizmləri haqqında dəyərli tədqiqatlara və nəticələrə rast gəlinir.

Bunlarla yanaşı tədqiq edilən mövzuya dair məsələlərlə Azərbaycanlı alim və tədqiqatçılar olan akademik R.Mehdiyevin, E.Hacızadənin, F.Mustafayevin, G.Gənciyev, A.Şəkərəliyev, H.Rüstəmbəyov, M.Bağırov, İ.Məmmədovun, Ə.Ələkbərovun, M.Vəliyevin, C.Məmmədovun, F.Bağırovun, Q.Əliyevin, R.Quliyevin, İ.Kərimlinin və s.əsərlərində də rast gəlinir. Qeyd edilən tədqiqatların yüksək dəyərə malik olduğunu vurğulamaqla nəzərə almaq lazımdır ki, bu tədqiqatlarda dinamik inkişafın təmin edilməsində beynəlxalq kapitaldan istifadə mexanizminin təkmilləşdirilməsi məsələləri kompleks halda nəzərdən keçirilməmişdir. Məhz bu zərurət tədqiqat mövzusunun təqdim edilən formada seçilməsinə əsas yaratmışdır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti olaraq Azərbaycan iqtisadiyyatının beynəlxalq kapital cəlb edilən sahələri seçilmişdir.

**Tədqiqatın predmeti** olaraq ölkə iqtisadiyyatına beynəlxalq kapitalın cəlb olunması, onun idarə olunması, tənzimlənməsi, təhlil olunması, qiymətləndirilməsi proseslərinin həyata keçirilməsini müəyyən edən üsul, qayda, vasitələrin ümumi məcmusu və bu fonda formalaşan iqdisadi münasibətlər qəbul edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycan iqtisadiyyatında dinamik inkişafının təmin edilməsində beynəlxalq kapitaldan istifadə mexanizminin qanunauyğunluqlarını, xüsusiyyətlərini və səmərəliliyinin qiymətləndirilməsini nəzəri və metodoloji baxımdan araşdırmaq, ölkəmizin iqtisadiyyatına beynəlxalq kapitalın cəlb edilməsinin müasir vəziyyətini sistemli təhlil

etmək, həmin kapitaldan istifadə dərəcəsini müəyyən etmək, ondan istifadənin prioritetlərini əsaslandırmaq, bu proseslərin səmərəliliyinin yüksəldilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış və praktiki cəhətdən reallaşdırılması məqsədəuyğun olan təklif və tövsiyyələr irəli sürməkdən ibarətdir.

Tədqiqat işində qeyd edilən məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- dinamik inkişafın mahiyyətini açmaq, onun təmin edilməsinin qanunauyğunluqlarını və xüsusiyyətlərini aşkar etmək, iqtisadiyyatdakı rolunu əsaslandırmaq;
- beynəlxalq kapitalın iqtisadi mahiyyətini açmaq, onun formalarının məzmununu izah etmək, ondan istifadənin iqtisadi inkişafa təsirinin istiqamətlərini əsaslandırmaq;
- beynəlxalq kapitaldan istifadənin nəzəri məsələlərini şərh etmək, onu təhlil etmək, müxtəlif mövqeləri araşdıraraq ona yanaşmanı izah edərək onun metodoloji məsələlərini nəzərdən keçirmək:
- Azərbaycanda beynəlxalq kapitaldan istifadə mühitinin müasir vəziyyətinin təhlil edilməsi, istifadə mexanizminin spesifik xüsusiyyətlərinin araşdırılması;
- Azərbaycanda beynəlxalq kapitaldan istifadə mexanizminin müasir vəziyyətinin geniş təhlilinin aparılması və zəruri meyllərin aşkar olunması;
- ölkə iqtisadiyyatında beynəlxalq kapitaldan istifadənin nəticələrinin qiymətləndirilməsi;
- beynəlxalq kapitaldan istifadə mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
- beynəlxalq kapitaldan səmərəli istifadənin prioritet istiqamətlərinin müəyyən edilməsi və bu istiqamətdə təhlillər aparılaraq təkliflər verilməsi.

**Tədqiqat metodlarını** Azərbaycan və xarici ölkə amillərinin dinamik inkişafa, onun təmin edilməsində beynəlxalq kapitaldan istifadə mexanizmlərinə, bu prosesin təşkilinə, idarə edilməsinə, tənzimlənməsinə, təkmilləşdirilməsinə aid nəzəri və təcrübi məzmuna malik tədqiqatları, Milli Məclis tərəfindən qəbul olunmuş qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları,

Nazirlər Kabinetinin qərarları, Azərbaycan Dövlət Statistika Komitəsinin metodoloji, normativ akt və məlumatları, Strateji Yol Xəritəsinin materialları, Beynəlxalq Valyuta Fondunun məlumat, göstəriciləri və s. təşkil edir.

Tədqiqat prosesində sistemli kompleks, pozitiv-proqmatik, statistik, qruplaşdırma, ümumiləşdirmə, müqayisəli təhlil, müqayisə, sintez, balans və digər tədqiqat üsullarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- dinamik inkişafın mahiyyəti, iqtisadi inkişafın təmin edilməsində onun rolunun əsaslandırılması;
- beynəlxalq kapitalın iqtisadi məzmunu, onun iqtisadi inkişafa təsiri istiqamətləri,
- ölkəmizdə beynəlxalq kapitaldan istifadənin müasir vəziyyətinin təhlili və onun nəticələrinin qiymətləndirilməsi;
- beynəlxalq kapitaldan istifadənin təkmilləşdirilməsi və dinamik inkişafa təsirinin prioritet istiqamətləri.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

Nəzəri və metodoloji yanaşmaların geniş təhlili əsasında dinamik inkişafın təmin edilməsində beynəlxalq kapitaldan istifadə mexanizminin mahiyyəti açıqlanmış, onun zəruriliyi əsaslandırılmışdır;

- dinamik inkişafın təmin edilməsində beynəlxalq kapitaldan istifadə mühiti geniş şəkildə araşdırılmış, ondan istifadə mexanizminin mühüm parametrləri müəyyən edilmişdir;
- beynəlxalq kapitaldan istifadə mexanizminin müasir vəziyyəti çoxsaylı göstəricilər əsasında geniş təhlil edilmiş, onun yaratdığı müsbət meylləri müəyyən edilmiş və təkmilləşdirilməsi istiqamətində təkliflər verilmişdir;
- beynəlxalq kapitaldan istifadənin vəziyyətini xarakterizə edilən çoxsaylı göstəricilərin təhlillərinə əsaslanan qiymətləndirmə aparılmış, hər bir göstəricinin ölkənin makroiqtisadi göstəricilərinə təsir səviyyəsi müəyyən edilmiş və onların yaxşılaşdırılması istiqamətində konkret təkliflər irəli sürülmüşdür;
- aparılmış geniş təhlillər və qiymətləndirmə nəticəsində beynəlxalq kapitaldan səmərəli istifadənin və dinamik

inkişafın təmin edilməsinin prioritet istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya üzrə aparılan tədqiqat nəticəsində sistemləşdirilən nəzəri konseptual müddəalar, irəli sürülən təklif və tövsiyyələr respublika iqtisadiyyatına beynəlxalq kapitalın davamlı olaraq cəlb edilməsi, bu prosesin təşkili, tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətində tətbiq edilə biləcək proqram və proqnozların hazırlanmasında geniş istifadə edilə bilər.

Eyni zamanda tədqiqtaın materialları həm bakalavr, həm də magstr səviyyəsində təhsil alan tələbələrin tədris prosesində, konkret olaraq "Dünya iqtisadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər", "Beynəlxalq maliyyə münasibətləri", "Beynəlxalq kreditləşmə" və s. fənnlərinin tədrisində əyani vəsait kimi istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiyanın nəticələri və əsas müddəaları 2017-2022-ci illər ərzində beynəlxalq və respublika əhəmiyyətli konfrans, simpozium və seminarlarda məruzə olunaraq müzakirə olunmuşdur.

Tədqiqat nəticəsində dissertasiya işi üzrə 3,6 çap vərəqi olmaqla 8 adda elmi məqalə və tezislər çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** "Azərbaycan Koorperasiya Universiteti".

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi Giriş (15291 işarə), I fəsil (68636 işarə), II fəsil (88932 işarə), III fəsil (41052 işarə), nəticə (11244 işarə) və 152 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla dissertasiya 225083 işarədir.

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALAR:

1. **Dinamik inkişafın mahiyyəti, iqtisadi inkişafın təmin edilməsində onun rolunun əsaslandırılması;**

Ölkə iqtisadiyyatında dinamik inkişafın mövcudluğu dedikdə iqtisadiyyatın ümumi vəziyyətini xarakterizə edən göstəricilərin artımla müşahidə edilən dinamikası başa düşülür. Rus iqtisadçı alimləri olan B.A.Rayzberqin, L.Ş.Lozovskinin, E.B.Starodubçevanın müəllifliyi ilə buraxılan "Müasir iqtisadi lüğət"də iqtisadi göstəricilərin dinamikası öz əksini belə tapmışdır: "İqtisadi göstəricilərin dinamikası onların vaxt etibarı ilə dəyişməsi xarakterini əks etdirir. Bu həmin göstəricilərin tərtib olunması və bir çox vacib göstəricilərin sırasının təhlili yolu ilə müəyyən edilir. Zəruri dinamik adlanan sıralar özündə həmin vacib göstəricilərin məcmuyunu əks etdirməklə artan yekunla göstərilir" [114, səh 80].

Ölkəmizdə dinamik inkişafı bərpa etməkdə baza, bünövrə rolunu oynayan "Əsrin müqaviləsi" respublikamızın bütün rayon və regionlarının, şəhərlərinin və paytaxt Bakının sürətli inkişafını təmin etdi. Gələcək nəsillərin maraqlarını qorumaq, onların dinamik inkişafını təmin etmək üçün 1999-cu ildə ölkəmizdə Neft Fondu yaradıldı.

Təhlillər göstərir ki, dinamik inkişafın əsasının qoyulduğu illərdə ölkənin valyuta ehtiyatlarının olmamasına baxmayaraq, büdcə vəsaitlərinin çox aşağı səviyyədə olmasına baxmayaraq 2019-cu ilin sonuna ölkəmiz 51 mlrd ABŞ dolları məbləğində valyuta ehtiyatlarına malik olmuşdur. 2024-ci ilin büdcəsi gəlir və xərclər maddəsinə görə Azərbaycan tarixində rekord səviyyəyə çatmışdır. Ölkə iqtisadiyyatına xarici investisiyalar axını 1995-ci ildən başlamış və 2006-cı il də daxil olmaqla ölkə iqtisadiyyatına qoyulan xarici investisiyalarda xarici kapitalın, beynəlxalq kapitalın xüsusi çəkisi 70-75%-ə çatmışdır. 2007-ci ildən başlayaraq ölkə iqtisadiyyatında hər il daxili investisiyaların xüsusi çəkisi artmağa başlamış və bu qeyd edilən nisbət onun xeyrinə dəyişmişdir. Ölkənin özünün iqtisadiyyatının güclənməsi, maliyyə, valyuta ehtiyatlarının artması ona gətirib çıxarmışdır ki, hal-hazırda ölkə iqtisadiyyatına kapital qoyuluşlarının 80-85%-i daxili vəsaitlər hesabına reallaşdırılır.

2024-ci ilin 1 yanvar tarixinə Azərbaycanda formalaşmış olan dinamik inkişaf nəticəsində makroiqtisadi göstəricilər artım tempinə malik olmuşdur. Belə ki, 2019-cu ildə əvvəlki il ilə müqayisədə ümumi daxili məhsul 2,2 faiz artmışdır. Qeyri-neft sektorunda artım 3,5%, sənaye istehsalında 1,5%, qeyri-neft sektorunda sənaye istehsalı 14%, kənd təsərrefatı sahəsində isə 7% olmuşdur. Həmin il ərzində inflyaisya 2,6% təşkil etmiş, əhalinin pul gəlirləri 7,4% artmışdır. Təkcə 2024-ci il ərzində valyuta ehtiyatlarının həcmi artaraq 30.09.2024 tarixinə 73 milyard 493.4 milyon ABŞ dolları olmuşdur ki, bunlarda Azərbaycan Respublikası Neft Fondunun (ARDNF) valyuta ehtiyatı 61 milyard 697.6 milyon ABŞ dolları və Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 11 milyard 795.8 milyon ABŞ dollarından formalaşan iki göstəricinin cəmindən ibarətdir. Valyuta ehtiyatlarının həcminə görə Azərbaycan Müstəqil Dövlətlər Birliyində birinci yerdə qərarlaşmışdır. Ölkədə dinamik inkişaf nəticəsində əldə edilən daha bir yüksək makroiqtisadi göstərici ondan ibarətdir ki, 2024-ci ilin sonuna ölkədə xarici ticarət dövriyyəsinin saldosu 6 milyard 105.9 milyon dollar təşkil etmişdir. Bu göstəricinin yüksək olması il ərzində manatın məzənnəsinin sabit saxlanmasına, həm də bütövlükdə makroiqtisadi sabitliyin qorunmasına şərait yaratmışdır [16, s. 167].

## 2. Beynəlxalq kapitalın iqtisadi məzmunu, onun iqtisadi inkişafa təsiri istiqamətləri

İqtisadi dinamikaya təsir edən ən mühüm amillərdən biri də beynəlxalq kapitaldır. Beynəlxalq kapital beynəlxalq maliyyə-iqtisadi münasibətlərin ən mühüm seqmentlərindən biri olmaq etibarilə qloballaşan dünyada çox mühüm əhəmiyyətə malikdir. Beynəlxalq kapital həm idxalçı, həm də ixracatçı ölkə üçün zəruri olan parametrlərə malikdir. Beynəlxalq kapital pul və natural formada ifadə edilən maliyyə resurslarının mühüm hissəsidir. Beynəlxalq kapital istehsal amillərindən biri olmaq etibarilə digər amillərən fərqli olaraq daha çox hərəkətdədir və yatırıldığı məkanda yeni dəyər yaratmaqla daha çox səmərə verir.

Beynəlxalq kapital dedikdə hər hansı bir ölkənin milli kapital dövriyyəsindən həmin kapitalın müəyyən bir müddət ərzində bu və ya digər formada digər bir ölkənin iqtisadiyyatına istehsal və ya investisiya qoyuluşunun artırılması yolu ilə qoyulan hissəsi başa

düşülməlidir. [48, s. 54-59]. Kapitalın idxalı və ixracı əməliyyatı həmin kapitala beynəlxalq kapital parametri verir.

Azərbaycanlı alim F.Mustafayev beynəlxalq kapitalın mahiyyətinə işarə edərək yazırdı ki, adətən təbii resursları bol olan ölkələr onlarla ticarət edən dövlətlərin və dünya iqtisadiyyatının xammal bazasına çevrilir. Belə ölkələr istehsalı çox zaman köhnə texnologiyalar əsasında qurur və inkişaf etmiş ölkələrlə ayaqlaşa bilmir. Belə gerçəklik nisbi mənada respublikamız üçün də xarakterikdir. Təbii ehtiyacları olmayan ölkələr isə resursqoruyucu texnologiyalar yaratmaq məcburiyyətində qalır, emal sənayesi və emaltutumlu istehsalı inkişaf etdirir [51, s. 360].

Azərbaycanlı iqtisadçı alim E.Hacızadə isə beynəlxalq kapitalı iqtisadi artımın mühüm elementindən biri kimi dəyərləndirərək yazırdı ki, real həyatda əlavə resursların cəlb edilməsi artım üçün yeni səmərəli mənbələr yaradır ki, onlardan da makroiqtisadi göstəricilərin yaxşılaşmasında, onların onların dinamikasının təmin edilməsində istifadə etmək mümkündür [56, s. 24].

Beynəlxalq kapitalın mühüm parametrlərini, onun mahiyyətini öyrənmək üçün nəzərdən keçirilməli məsələlərdən biri də beynəlxalq kapitalın formalarıdır. Bu məsələyə yanaşmada müxtəlif fikirlərə rast gəlinir. Rus alimləri A.İ.Dobrının və L.S.Taraseviç yazırdılar ki, beynəlxalq kapital ölkədən iki formada çıxarılır. Onlardan birincisi **sahibkarlıq kapitalı formasıdır**, ikincisi isə **ssuda kapitalı formasında** baş verir [95, s. 424]. Sahibkarlıq kapitalı formasında kapitalın ixracı xarici ölkələrdə bu və ya digər istiqamətlərdə fəaliyyət göstərən müəssisələrin, təşkilatların yaradılmasına və ya iqtisadiyyatın müxtəlif sahələrində hər hansı bir layihənin reallaşdırılmasına yönəldilir. Real şəkildə həyata keçirilən investisiya layihəsində ixracatçının iştirak səviyyəsindən asılı olaraq investisiyanın iki forması fərqləndirilir. Onlara **birbaşa investisiyalar** və **portfel investisiyalar** aid edilir. Birbaşa investisiyalar dedikdə investisiya layihələrində qoyulan vəsaitlər üzərində xarici tərəfdaşların tam mülkiyyət sahibi kimi çıxış etmələri və ya nəzarət səhm paketinə sahib olmaları başa düşülür. Portfel investisiyaları dedikdə isə layihələrdə beynəlxalq kapital sahiblərinin onlara tam mülkiyyət sahibliyi və ya nəzarət səhm paketinə

nəzarət etmək hüququ verilməyən səviyyədə səhmlərə sahib ola bilmək imkanları başa düşülür.

Rus alimlərinin fikrinə görə beynəlxalq kapitalın istifadəsinin ikinci mühüm forması **ssuda kapitalı** formasıdır [70, s. 429]. Bu forma beynəlxalq iqtisadi münasibətlərdə hal-hazırda daha çox yayılmış beynəlxalq kredit formasıdır. Beynəlxalq kapitaldan istifadənin bu forması ölkələrarası əmtəə mübadiləsinin həcmini artırır, pul hesablaşmalarını asanlaşdırır, iqtisadiyyatın daha da inkişaf etdirilməsi məqsədilə xarici maliyyə vəsaitlərinin cəlb edilməsi üçün geniş imkanlar yaradır və s. Hal-hazırda ölkələrarası beynəlxalq kreditlərin artım tempi, beynəlxalq ticarət tempini və həmçinin xarici birbaşa investisiyaların artım tempini üstələyir.

**3. Ölkəmizdə beynəlxalq kapitaldan istifadənin müasir vəziyyətinin təhlili və onun nəticələrinin qiymətləndirilməsi;**

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatına beynəlxalq kapitalın cəlb olunması ölkədə apaılan iqtisadi siyasətin prioritetlərindən biridir. Ölkədə beynəlxalq kapitaldan istifadəyə uyğun şəraitin yaradılması hüquqi bazanın təmin edilməsi ilə reallaşdırılmışdır. Belə bir baza 15 yanvar 1992-ci ildə qəbul olunmuş "Xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikasının Qanunu" və 13 yanvar 1995-ci ildə qəbul olunmuş "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu" vasitəsilə təmin edilmişdir.

Beynəlxalq kapitaldan daha da səmərəli istifadə etmək məqsədilə kreditorlar və investorlar üçün mane və məhdudiyyətlər aradan götürülmüş, əməliyyatlar üzrə dəyişməz valyuta kursu müəyyən edilmiş, reinvestisiya üçün uyğun, səmərəli şərait təmin edilmişdir. Qeyd edilənlər əsasında ölkəmizdə beynəlxalq kapitalın istifadəsi üçün cəlbedici şərait yaradılmışdır.

Azərbaycanda beynəlxalq kapitaldan istifadənin vəziyyətini təhlil etmək üçün 2000-2019-cu illər ərzində ölkə iqtisadiyyatına yatırılmış investisiyaların dinamikasını və ÜDM-ə nisbətini nəzərdən keşirmək lazımdır. [Cədvəl 1].

**Cədvəl 1**

**2000-2022-cu illər ərzində Azərbaycan iqtisadiyyatına yatırılmış investisiyaların və ümumi daxili məhsulun dinamikası**

| İllər | Cəmi investisiyalar | | Xarici investisiyalar | | Daxili investisiyalar | | Ümumi daxili məhsul | |
|---|---|---|---|---|---|---|---|---|
| | mln. manat | mln. dollar | mln. manat | mln. dollar | mln. manat | mln. dollar | mln. manat | mln. dollar |
| 2000 | 1289.8 | 1441.4 | 829.5 | 927.0 | 460.3 | 514.4 | 4718.1 | 5272.5 |
| 2001 | 1454.5 | 1561.8 | 1016.8 | 1091.8 | 437.7 | 470.0 | 5315.6 | 5687.7 |
| 2002 | 2718.9 | 2796.6 | 2172.8 | 2234.9 | 546.1 | 561.7 | 6062.5 | 6232.2 |
| 2003 | 4249.3 | 4326.3 | 3311.0 | 3371.0 | 938.3 | 955.3 | 7146.5 | 7275.1 |
| 2004 | 5820.3 | 5922.8 | 4496.3 | 4575.5 | 1324.0 | 1347.3 | 8530.2 | 8675.2 |
| 2005 | 6733.4 | 7118.5 | 4628.5 | 4893.2 | 2104.9 | 2225.3 | 12522.5 | 13236.3 |
| 2006 | 7415.6 | 8300.4 | 4514.2 | 5052.8 | 2901.4 | 3247.6 | 18746.2 | 20977.0 |
| 2007 | 10353.9 | 12066.1 | 5727.2 | 6674.3 | 4626.7 | 5391.8 | 28360.5 | 32898.2 |
| 2008 | 13328.0 | 16222.0 | 5625.8 | 6847.4 | 7702.2 | 9374.6 | 40137.2 | 48846.9 |
| 2009 | 10475.0 | 13033.5 | 4395.1 | 5468.6 | 6079.9 | 7564.9 | 35601.5 | 44146.0 |
| 2010 | 14118.9 | 17591.4 | 6619.7 | 8247.8 | 7499.2 | 9343.6 | 42465.0 | 52656.0 |
| 2011 | 17048.8 | 21588.9 | 6849.8 | 8673.9 | 10199.0 | 12915.0 | 52082.0 | 66144.0 |
| 2012 | 20251.0 | 25778.8 | 8102.7 | 10314.0 | 12148.3 | 15463.8 | 54743.7 | 69524.4 |
| 2013 | 21448.2 | 27340.0 | 8269.3 | 10540.9 | 13178.9 | 16799.1 | 58182.0 | 73891.1 |
| 2014 | 21890.6 | 27907.5 | 9175.6 | 11697.7 | 12715.0 | 16209.8 | 59014.1 | 74948.0 |
| 2015 | 20057.4 | 19547.2 | 10998.9 | 10719.1 | 9058.5 | 8828.1 | 54380.0 | 52749.0 |
| 2016 | 22706.4 | 14228.0 | 16216.1 | 10161.1 | 6490.3 | 4066.9 | 60425.2 | 37826.2 |
| 2017 | 24462.5 | 14213.2 | 15697.3 | 9120.5 | 8765.2 | 5092.8 | 70337.8 | 40866.3 |
| 2018 | 25877.0 | 15221.7 | 14002.1 | 8236.5 | 11874.9 | 6985.2 | 80092.0 | 47094.1 |
| 2019 | 24986.6 | 14698.0 | 12119.5 | 7129.1 | 12867.1 | 7568.9 | 81896.2 | 48174.2 |
| 2020 | 22484.0 | 13225.9 | 10413.2 | 6125.4 | 12070.8 | 7100.5 | 72578.1 | 42693.0 |
| 2021 | 25313.8 | 14890.4 | 12751.9 | 7501.1 | 12561.9 | 7389.3 | 93203.2 | 54825.4 |
| 2022 | 29135.1 | 17138.3 | 14879.3 | 8752.5 | 14255.8 | 8385.8 | 133825.8 | 78721.1 |
| **Cəmi** | **353619.0** | **316158.7** | **182812.6** | **158356.1** | **170806.4** | **157801.7** | **1080365.9** | **933359.9** |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Cədvəl 1-in məlumatlarından görünür ki, 2000-2022-ci illər ərzində ölkəmizin iqtisadiyyatına 353619,0 mln manat və ya 316158,7 mln dollar həcmində investisiyalar yatırılmışdır. Həmin investisiyaların həcmi 2000-ci ildən başlayaraq 2022-ci il də daxil olmaqla hər il artımla müşahidə edilən dinamikaya malik olmuşdur.

Cədvəl 1-in məlumatlarından görünür ki, 2006, 2008-2009-cu illər və 2017-2020-ci illər istisna olmaqla hər il ölkə iqtisadiyyatına xarici investisiyaların qoyuluşunda artımla müşahidə edilən dinamika

olmuşdur. 2000-ci ildən 2022-ci ilədək illik investisiya qoyuluşlarının həcmi 18 dəfə artmışdır. Göründüyü kimi təhlil edilən illər ərzində ölkə iqtisadiyyatına 182812,6 milyon manat və ya 158356,1 mln dollar xarici investisiya qoyulmuşdur.

Xarici investisiyalar məcmu investisiya qoyuluşlarının 51,1%-ni təşkil etmişdir. İnvestisiyaların qalan hissəsi, yəni 48,9%-i isə daxili investisiyaların payına düşmüşdür. Cədvəl məlumatlarından göründüyü kimi, ölkə iqtisadiyyatına ən çox xarici investisiya 2012-2016-cı illər ərzində qoyulmuşdur.

Beynəlxalq kapital axınlarının xarici investisiya qoyuluşları şəklində ölkə iqtisadiyyatına cəlb olunması ölkədə iqtisadi dinamikanın təmin edilməsinə və həmçinin makroiqtisadi göstəricilərin yaxşılaşmasına birbaşa şərait yaratmışdır. Belə ki, həmin faktor bir sıra makroiqtisadi göstəricilərə birbaşa təsir edir. Bu göstəricilərə ümumi daxili məhsul həcmini, məşğulluq səviyyəsini, işsizlik səviyyəsini, pul emissiyasını, texniki silahlanma səviyyəsini və s. aid etmək olar.

Cədvəl 1-in məlumatlarından görünür ki, ölkədə 2000-2022-ci illər ərzində 1080365,9 mln manat və ya 933359,9 mln dollar həcmində ümumi daxili məhsul istehsal olunmuşdur. Həmin dövr ərzində cəmi investisiyaların ÜDM-də payı 32,7% təşkil etmişdir. ÜDM-də xarici investisiyaların payı 16,9%, daxili investisiyaların payı isə 15,8% səviyyəsində formalaşmışdır. ÜDM-də xarici investisiyaların payı 2015-ci ildə 20%, 2016-ci ildə 27%, 2017-ci ildə isə 22% olaraq ən yüksək səviyyədə formalaşmışdır.

Beynəlxalq kapitaldan istifadənin ölkə iqtisadiyyatına təsirini təhlil etmək üçün nəzərdən keçirilməli mühüm göstəricilərdən biri də 2000-2022-cu illərdə iqtisadiyyatda əsas kapitala yönəldilmiş beynəlxalq kapitalın illər üzrə müqayisəli dinamikasıdır. [Cədvəl 2].

Cədvəl 2-nin göstəricilərindən aydın olur ki, 2000-2022-ci illər ərzində ölkə iqtisadiyyatına əsas kapitala investisiya qoyuluşlarında xarici investisiyalar xüsusi çəki etibarilə 35,6% təşkil etmişdir. Göründüyü kimi bu göstərici 2000-2006-cı illərdə 50%-dən yuxarı olmuşdur. Qalan 2007-2019-cu illər içərisində bu göstərici yalnız 2016-cı ildə 50% səviyyəsini ötərək 57%-ə çatmışdır.

**Cədvəl 2. 2000-2022-cu illər ərzində Azərbaycan iqtisadiyyatında əsas kapitala yönəldilmiş beynəlxalq kapitalın əvvəlki il ilə müqayisəli dinamikası**

| İllər | Ümumi investisiya (mln.man) | Əvvəlki ilə nəzərən artım, azalma | | O cümlədən xarici investisiya | | Əvvəlki ilə nəzərən artım, azalma | |
|---|---|---|---|---|---|---|---|
| | | məbləğ (+;-) | dəyişmə (+;-) %-lə | məbləğ (mln man) | cəmdə xüsusi çəkisi (%-lə) | məbləğ (+;-) | dəyişmə (+;-) %-lə |
| 2000 | 967.8 | +739.8 | 424.4 | 507.5 | 52.4 | +428.8 | 644.8 |
| 2001 | 1170.8 | +203.0 | 121 | 733.1 | 62.6 | +225.6 | 144.4 |
| 2002 | 2107.0 | +936.2 | 179.9 | 1560.9 | 74.1 | +828.8 | 212.9 |
| 2003 | 3786.4 | +1679.4 | 179.7 | 2848.1 | 75.2 | +1287.2 | 182.4 |
| 2004 | 4922.8 | +1136.4 | 130.0 | 3598.8 | 73.1 | +750.7 | 126.3 |
| 2005 | 5769.9 | +847.1 | 117.2 | 3665.0 | 63.5 | +66.2 | 102.0 |
| 2006 | 6234.5 | +464.6 | 108.0 | 3333.1 | 53.5 | -331.9 | 90.9 |
| 2007 | 7471.2 | +1236.7 | 119.8 | 2844.5 | 38.1 | -488.6 | 85.3 |
| 2008 | 9944.2 | +2473.0 | 133.1 | 2242.0 | 22.5 | -602.5 | 78.8 |
| 2009 | 7724.9 | -2219.3 | 77.68 | 1645.0 | 21.3 | -597 | 73.3 |
| 2010 | 9905.7 | +2180.8 | 128.2 | 2406.5 | 24.3 | +761.5 | 146.3 |
| 2011 | 12799.1 | +2893.4 | 129.2 | 2600.1 | 20.3 | +193.6 | 108.0 |
| 2012 | 15407.3 | +2608.2 | 120.3 | 3258.9 | 21.2 | +658.8 | 125.3 |
| 2013 | 17850.8 | +2443.5 | 115.8 | 4671.9 | 26.2 | +1413 | 143.3 |
| 2014 | 17618.6 | -232.2 | 98.7 | 4903.6 | 27.8 | +231.7 | 105.0 |
| 2015 | 15957.0 | -1661.6 | 90.6 | 6898.5 | 43.2 | +1994.9 | 140.7 |
| 2016 | 15772.8 | -184.2 | 98.8 | 8594.5 | 57.0 | +2655.1 | 144.7 |
| 2017 | 17430.3 | +1657.5 | 110.5 | 8476.4 | 49.0 | -118.1 | 98.6 |
| 2018 | 17244.9 | -185.4 | 98.9 | 7701.1 | 33.0 | -775.3 | 91.0 |
| 2019 | 18539.5 | +1294.6 | 107.5 | 7334.3 | 36.9 | -366.8 | 95.2 |
| 2020 | 17226.1 | -1313.4 | 92.9 | 5155.3 | 29.9 | -2179 | 70.3 |
| 2021 | 16815.5 | -410.6 | 97.6 | 4253.6 | 25.3 | -901.7 | 82.5 |
| 2022 | 17878.2 | +1062.7 | 106.3 | 3622.3 | 20.3 | -631.3 | 85.2 |
| **Cəmi** | **260545.3** | | | **92855.0** | **35.6** | | |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Ölkə iqtisadiyyatında 2007-ci ildən başlayaraq əsas kapitala investisiya qoyuluşlarında daxili investisiyaların xüsusi şəkisinin artması bir sıra səbəblərlə izah olunur. Bu xarici investisiyaların daha çox cəlb olunduğu neft-qaz sektorunda əsas kapitalla təchiz olunmanın kifayət səviyyəyə çatması, eyni zamanda ölkənin özünün zəruri səviyyədə valyuta ehtiyatlarının formalaşması ilə və s. səbəblərlə əlaqədar olmuşdur. Lakin təhlil edilən illər ərzində əsas kapitala investisiya qoyuluşlarının xüsusi çəki etibarilə azalması heç də bu

vəsaitlərin ölkə iqtisadiyytaında rolunun azalması demək deyildir. Çünki 2007-2009-cu illər ərzində əsas kapitala xarici investisiya qoyuluşları ən aşağı 20,3% (2011-ci il) və ən yuxarısı 57% (2016-cı il) diapazonunda müxtəlif səviyyələrdə dəyişərək ölkə iqtisadiyyatının dinamik inkişafında əhəmiyyətli rol oynamışdır. Bu göstərici 2000-2007-ci illərdə xüsusi çəki etibarilə aşağısı 52,4% (2000-ci il), yuxarısı isə 75,2% (2003-cü il) diapazonunda dəyişərək bütün illər ərzində daxili investisiyaları üstələmişdir. 2000-2005-ci illər ərzində onun həcmində hər il əvvəlki ilə müqayisədə artım müşahidə olunmuşdur.

Cədvəl 2-nın göstəricilərindən aydın olur ki, 2000-2019-cu illər ərzində əsas kapitala məcmu investisiya qoyuluşlarında xarici, beynəlxalq kapitalın xüsusi çəkisi 2007-ci ilə qədər 50%-dən yuxarı olmuş, sonrakı illərdə isə aşağı enərək, təhlil edilən sonuncu 2015-ci ildə 2000-2022-ci ilin orta göstəricisinə (43,8%) yaxın bir həddə formalaşmışdır. Bu göstərici 2000-2022-ci illər ərzində 35,6% səviyyəsində olmaqla iqtisadiyyatın əvvəlcə neft-qaz sektorunda, sonra isə digər sektorların əsas kapitala olan ehtiyacının ödənilməsində xüsusi rol oynamışdır. Son illərin göstəricilərinə əsaslansaq deyə bilərik ki, beynəlxalq kapital bu gün də yəni 2015-2022-ci illər ərzində orta illik xüsusi çəki etibarilə 43,8% təşkil edərək iqtisadiyyatın dinamik inkişafında öz əhəmiyyətli rolunu oynamaqdadır.

Tədqiqat işinin məqsəd və vəzifələrinə uyğun olaraq 2000-2022-cu illəri əhatə edən dövr ərzində dünyada beynəlxalq kapital axınlarının və eləcə də Azərbaycana beynəlxalq kapitalın cəlb edilməsinin, onun dinamik inkişafa təsirinin və həmçinin həmin vəsaitlərdən istifadənin ən zəruri parametrləri təhlil olunmuşdur. Həmin təhlil nəticəsində əldə olunmuş göstəricilər əsasında beynəlxalq kapitaldan istifadənin nəticələrinin qiymətləndirilməsi tədqiqatın əsas məqsəd və vəzifələrindəndir. Bunu nəzərə alaraq aşağıdakı qiymətləndirməni həyata keçirçmişik

**1) Beynəlxalq kapital axınlarının qlobal ÜDM-ə təsiri**

2005-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə **qlobal iqtisadiyyatda hərəkət edən beynəlxalq kapitalın həcminin 1% artması qlobal ÜDM-in 0.12% artması isə nəticələnir**. Eyni zamanda müəyyən olunmuşdur ki, qlobal ÜDM-dəki

dəyişmələrin 98.3%-i modelə daxil edilmiş göstəricilər – beynəlxalq kapital hərəkəti və əvvəlki ilin qlobal ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ = 0.983).

Qiymətləndirmə nəticələri statistik keyfiyyət baxımından qənatəbəxşdir: beynəlxalq kapital hərəkətinin əmsalı 0.05, digər əmsallar isə 0.01 səviyyəsində statistik əhəmiyyətlidir, həmçinin determinasiya əmsalı ($R^2$) da 0.01 səviyyəsində statistik əhəmiyyətlidir, Durbin-Watson statistikasının 2.002 qiymət alması qalıqlar arasında avtokorrelyasiyanın olmadığını deməyə əsas verir.

**2) Azərbaycanda investisiya qoyuluşlarının ÜDM-ə təsiri: daxili və xarici investisiyalar:**

2000-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə **Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminin 1% artması ölkə ÜDM-nin 0.22% artması isə nəticələnir, daxili investisiyalarda isə bu rəqəm 0.28%-dir.** Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycan ÜDM-indəki dəyişmələrin 99.4%-i modelə daxil edilmiş göstəricilər – daxili və xarici investisiya qoyuluşları, həmçinin əvvəlki ilin ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ = 0.994).

Qiymətləndirmə nəticələri statistik keyfiyyət baxımından qənatəbəxşdir: bütün əmsallar, o cümlədən determinasiya əmsalı ($R^2$) 0.01 səviyyəsində statistik əhəmiyyətlidir, Durbin-Watson statistikasının 1.623 qiymət alması (zaman sırasının uzunluğu və sərbəst dəyişənlərin sayını nəzərə aldıqda) qalıqlar arasında avtokorrelyasiyanın olmadığını deməyə əsas verir.

**3) Azərbaycanda beynəlxalq kapitalın qeyri-neft ÜDM-ə təsiri**

2009-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə **Azərbaycanın qeyri-neft iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminin 1% artması bir il sonra ölkədə qeyri-neft ÜDM-nin 0.12% artması isə nəticələnir.** Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycanın qeyri-neft ÜDM-indəki dəyişmələrin 99.9%-i modelə daxil edilmiş dəyişənlər – qeyri-neft iqtisadiyyatına qoyulan xarici investisiyaların

həcmi və əvvəlki ilin qeyri-neft ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ = 0.999).

Qiymətləndirmə nəticələri statistik keyfiyyət baxımından qənatəbəxşdir: bütün əmsallar, o cümlədən determinasiya əmsalı ($R^2$) 0.01 səviyyəsində statistik əhəmiyyətlidir, Durbin-Watson statistikasının 1.988 qiymət alması qalıqlar arasında avtokorrelyasiyanın olmadığını deməyə əsas verir.

2009-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə **Azərbaycanın qeyri-neft iqtisadiyyatına qoyulan xarici maliyyə kreditlərinin həcminin 1% artması növbəti ildə ölkədə qeyri-neft ÜDM-nin 0.13% artması isə nəticələnir.** Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycanın qeyri-neft ÜDM-indəki dəyişmələrin 99.96%-i modelə daxil edilmiş dəyişənlər – qeyri-neft iqtisadiyyatına qoyulan xarici maliyyə kreditləri (bir illik laq ilə) və əvvəlki ilin qeyri-neft ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ = 0.9996).

Qiymətləndirmə nəticələri statistik keyfiyyət baxımından əsasən qənatəbəxşdir: bütün əmsallar, o cümlədən determinasiya əmsalı ($R^2$) 0.01 səviyyəsində statistik əhəmiyyətlidir, Durbin-Watson statistikasının 2.549 qiymət alması (zaman sırasının uzunluğu və sərbəst dəyişənlərin sayını nəzərə aldıqda qeyri-müəyyənlik intervalına düşür) qalıqlar arasında avtokorrelyasiyanın olub-olmadığı ilə bağlı dəqiq fikir söyləməyə imkan vermir.

**4) Azərbaycanda birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-ə təsiri**

2010-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə **Azərbaycanın qeyri-neft iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyaların həcminin 1% artması növbəti ildə ölkədə qeyri-neft ÜDM-nin 0.05% artması isə nəticələnir.** Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycanın qeyri-neft ÜDM-indəki dəyişmələrin 99.9%-i modelə daxil edilmiş dəyişənlər – qeyri-neft iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar (bir illik laq ilə) və əvvəlki ilin qeyri-neft ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ = 0.999).

Qiymətləndirmə nəticələri statistik keyfiyyət baxımından əsasən qənatəbəxşdir: bütün əmsallar, o cümlədən determinasiya əmsalı ($R^2$) 0.01 səviyyəsində statistik əhəmiyyətlidir, Durbin-Watson statistikasının 2.911 qiymət alması (zaman sırasının uzunluğu və sərbəst dəyişənlərin sayını nəzərə aldıqda qeyri-müəyyənlik intervalına düşür) qalıqlar arasında avtokorrelyasiyanın olub-olmadığı ilə bağlı dəqiq fikir söyləməyə imkan vermir.

**5) Azərbaycanda xarici kapital qoyuluşlarının ÜDM-ə təsiri**

2000-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə **Azərbaycan iqtisadiyyatına qoyulan xarici kapital qoyuluşlarının həcminin 1% artması növbəti ildə ölkə ÜDM-nin 0.14% artması ilə nəticələnir, daxili kapital qoyuluşlarındakı 1% artım isə həmin il ÜDM-i 0.20% artırır.** Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycan ÜDM-indəki dəyişmələrin 99.1%-i modelə daxil edilmiş göstəricilər – ölkə iqtisadiyyatına daxili (bir illik laq ilə) və xarici kapital qoyuluşları, həmçinin əvvəlki ilin ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2 = 0.991$).

Qiymətləndirmə nəticələri statistik keyfiyyət baxımından qənatəbəxşdir: bütün əmsallar, o cümlədən determinasiya əmsalı ($R^2$) 0.01 səviyyəsində, fiktiv dəyişənin əmsalı isə 0.05 səviyyəsində statistik əhəmiyyətlidir, Durbin-Watson statistikasının 2.067 qiymət alması qalıqlar arasında avtokorrelyasiyanın olmadığını deməyə əsas verir.

## 4. Beynəlxalq kapitaldan istifadənin təkmilləşdirilməsi və dinamik inkişafa təsirinin prioritet istiqamətləri

Beynəlxalq kapitalın milli iqtisadiyyata cəlb edilməsi mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri tərəfdaş ölkələrin beynəlxalq iqtisadi əməkdaşlığa, inteqrasiyaya və qloballaşma proseslərinə qoşulmasıdır. Bu proses bu gün dünya ölkələrinin hər biri üçün ən aktual məsələlərdən birinə çevrilmişdir. Xüsusən də bu inkişaf etməkdə olan ölkələr üçün ən çox vacib olan və iqtisaidyyatın inkişafının təmin edilməsi üçün uyğun şərait yaradan sərfəli variantlardan biridir [30, səh 22].

Respublikamızda beynəlxalq kapitaldan istifadə mexanizminin təkmilləşdirilməsinin ayrı-ayrı istiqamətlərinin formalaşma amillərindən biri də ölkə iqtisadiyyatının xarici kapital üçün cəlbediciliyini

yaradan səbəblərdən ibarət olmuşdur. Bu hər şeydən əvvəl dünyada aparıcı ölkələrin enerji siyasətində neft və neft məhsullarının həlledici rol oynamsı ilə, ölkələrin strateji inkişaf perspektivində qeyd edilən meyillərin yaxın 50 il ərzində mövcud olacağı ilə, avropa ölkələrində enerji resurslarına olan tələbatın ilbəil artması ilə, bir sıra neft regionlarında neft istehsalının azalması əsasında inkişaf etmiş ölkələrin neft bazarında alış mənbələrinin dəyişməsi ilə, ölkəmizdə neft və qaz istehsalının artması fonunda, onların ixracının artması və s. ilə əlaqədar olmuşdur [32, səh 22-25].

Ölkəmiz Beynəlxalq Valyuta Fonduna üzv olduqdan sonra, yəni 1992-ci ildən başlayaraq bu təşkilatla əlaqələr çoxsaylı istiqamətlərdə həyata keçirilmişdir. Belə ki, bu təşkilat ölkəmizdə 1996-2019-cu illərdə 570 milyon SDR məbləğində krediti respublikamızın tədiyyə balansının potensialını artırmaq və ondan səmərəli istifadə etmək məqsədi ilə həyata keçirilən iqtisadi islahatlar proqramlarını reallaşdırmaq üçün vermişdir. Bu kredit illik istifadə faizi 0,5% olmaqla, güzəştli şərtlərlə, bu güzəştin müddəti beş il yarım olmaqla 12 il müddətinə ayrılmışdır. Həmin kreditin 13,8 mln SDR-i artıq fonda geriyə ödənilmişdir [45, səh 24]. Bu məqsədlərin yerinə yetirilməsi, yəni tədiyyə balansının tənzimlənməsi dünya ölkələrinin təcrübəsində tez-tez rast gəlinən və eyni zamanda çoxsaylı ölkələrin iqtisadi həyatında tətbiq edilən beynəlxalq kapitaldan istifadənin təkmilləşmə istiqamətlərindən biridir. Bu vasitədən bundan sonra da geniş istifadə olunması ölkəmizin iqtisadiyyatı üçün çox sərfəli olardı.

Dünya təcrübəsi göstərir ki, resurslardan asılı olan ölkələrdə iqtisadiyyatın diversifikasiyası inkişaf strategiyasının əsas üsullarından birinə çevrilir. Bunu şərtləndirən mühüm amillərdən biri isə dünya ölkələri arasında həm iqtisadiyyatların, xüsusən də maliyyə bazarlarının sürətli və geniş şəkildə qloballaşmasından ibarət olmuşdur. Çünki azad bazar münasibətlərinin mövcud olduğu şəraitdə iqtisadi münasibətlərin qloballaşması iqtisadiyyatda yarana bilən risklərin yayılmasına, onun minimuma endirilməsinə və qarşılıqlı surətdə tərəfdaş ölkələrin sürətlə inkişaf etməsinə şərait yaradır.

Beynəlxalq kapitaldan səmərəli istifadənin ən mühüm prioritet istiqamətlərindən biri onun birbaşa investisiyalar şəklində cəlb olunması və struktur etibarilə müxtəlif, zəruri sahələrə yönəldilməsindən ibarətdir.

Ölkəmizdə beynəlxalq kapitaldan səmərəli istifadənin təşkil olunmasının və dinamik inkişafın təmin edilməsinin prioritet istiqamətlərindən biri də transmilli şirkətlərin yaradılmasıdır. Xarici investisiyalar hesabına inkişaf edərək investisiya ixrac edən bir şirkətə çevrilmiş Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyətinin beynəlxalq münasibətlərdə yüksək nəticələr göstərməsidir. Belə bir fəaliyyətin yaranması ölkə iqtisadiyyatının xarici ölkələrlə münasibətinin genişlənməsinə, dünya iqtisadiyyatına sürətli və geniş inteqrasiya olunmasına, ölkənin qloballaşma proseslərində fəal iştirak etməyə şərait yaradır.

Beynəlxalq kapitaldan səmərəli istifadənin və dinamik inkişafın təmin edilməsinin mühüm prioritetlərindən biri də bu vəsaitlər hesabına ölkənin və iqtisadiyyatın kapitalın cəlb olunduğu sahələrinin rəqabətqabiliyyətliliyinin beynəlxalq ölçü və tələblər səviyyəsinə gətirilməsidir. Bu sahədə ən əsas prinsiplərdən biri ölkə iqtisadiyyatında həm makro, həm də miko səviyyədə rəqabətqabiliyyətliliyinin təmin edilməsindən ibarət olmalıdır.

## Nəticə

**1)** Müasir Azərbaycan iqtisadiyyatı özünün spesifik xüsusiyyətləri ilə fərqlənir. Müstəqillik əldə edildikdən sonra 2022-ci il də daxil olmaqla həm ixrac əməliyyatlarında, həm də dövlət büdcəsinin gəlirlərində neft sektorunun payı 80%-ə yaxın olmuşdur. Bu vəziyyətin yaranması ölkə iqtisadiyyatının mövcud strukturu ilə əlaqədardır. Paralel olaraq qeyd olunmalıdır ki, ölkə iqtisadiyyatının bu strukturda formalaşmasında beynəlxalq kapitalın rolu az olmamışdır. "Əsrin müqaviləsi"nin bağlanmasından sonra ölkə iqtisadiyyatına cəlb edilən küllü miqdarda beynəlxalq kapital hesabına dinamik, dayanıqlı, davamlı bir iqtisadi sistem yaradılmışdır.Əldə edilən iqtisadi uğurların və iqtisadiyyatda yaranan müsbət meyllərin əsası, onların hesabına makro və mikro səviyyədə iqtisadi göstəricilərin yüksəlməsi, ölkənin geoiqtisadi və geosiyasi mövqeyinin möhkəmlənməsi və iqtisadiyyatda zəruri parametrlərin formalaşması beynəlxalq kapitalın cəlb edilməsi ilə birbaşa bağlı olmuşdur.

**2)** Dissertasiya tədqiqatı zamanı aparılan təhlil və tədqiqatlarla sübut olunmuşdur ki, beynəlxalq kapital ölkəmizin iqtisadiyyatında multiplikativ rola malik olaraq iqtisadi göstəricilərin daimi olaraq

yüksəlməsini təmin etmişdir. 2020-ci ilin 1 yanvar tarixinə ölkəmizdə formalaşmış olan dinamik inkişaf nəticəsində makroiqtisadi göstəricilər artım tempinə malik olmuşdur. Belə ki, sonuncu təsərrüfat ili ərzində, yəni 2019-cu ildə əvvəlki il ilə müqayisədə ümumi daxili məhsul 2,2% artmışdır. Qeyri-neft sektorunda artım 3,5%, sənaye istehsalında 1,5%, qeyri-neft sektorunda sənaye istehsalı 14%, kənd təsərrüfatı sahəsində isə 7% təşkil etmişdir. Həmin il ərzində inflyasiya 2,6% səviyyəsində formalaşmış, əhalinin pul gəlirləri isə 7,4% artmışdır. Təkcə 2019-cu il ərzində ölkənin valyuta ehtiyatları 6,4 milyard ABŞ dolları artaraq cəmi 50 mlrd ABŞ dollarını ötmüşdür. Beynəlxalq kapitalın təsiri altında formalaşmış olan dinamik inkişaf nəticəsində ötən ilin sonuna ölkədə xarici ticarət dövriyyəsinin müsbət saldosu 6 milyard dollar təşkil etmişdir. Bunun nəticəsində də il ərzində manatın məzənnəsi sabit saxlanılmış, bütövlükdə makroiqtisadi sabitlik qorunmuşdur. Belə sabitlik şəraitində ölkədə çoxsaylı sosial infrastruktur layihələr icra olunmuş, əhalinin sosial rifahının daimi yüksəlməsi təmin edilmişdir.

**3)** Tədqiqatla sübut olunmuşdur ki, ölkəmizdə beynəlxalq kapitaldan istifadə mühiti və mexanizmi spesifik xüsusiyyətlərə malikdir. Bu spesifiklik hər şeydən əvvəl ölkə iqtisadiyyatına beynəlxalq kapitalın cəlb edilməsinin gərgin siyasi, sosial və iqtisadi vəziyyətin mövcud olduğu dövrdə başlaması ilə əlaqədar olmuşdur. Tərəfimizdən tədqiqatla sübut olunmuşdur ki, beynəlxalq kapital axınlarının ölkədə istifadə mexanizmini müəyyən edən əsas parametrlər aşağıdakılardan ibarətdir: beynəlxalq kapital axınlarının ölkədə istifadə mexanizmini müəyyən edən əsas istiqamətlər; beynəlxalq iqtisadi siyasətin ən mühüm və prioritet istiqaməti olmaq etibarilə xarici kapitalın ölkəyə axını, onlardan istifadənin təşkili istifadə istiqamətləri, bu problemlərin tənzimlənməsi; qarşılıqlı əlaqədə olan dövlətlərin, beynəlxalq kredit maliyyə təşkilatlarının, xarici dövlətlərin təsərrüfat kommersiya subyektlərinin valyuta, maliyyə və kredit siyasətinin əsas istiqamətləri; beynəlxalq inteqrasiyanın mühüm elementi olan ticarətin tənzimlənməsi istiqamətləri və s.

**4)** Dissertasiyada Azərbaycan iqtisadiyyatında beynəlxalq kapitaldan istifadə mexanizminin müasir vəziyyəti təhlil olunaraq belə bir nəticəyə gəlinmişdir ki, beynəlxalq kapitaldan istifadə mexanizmi

özündə kapital resurslarının yaranmasını, onların məqsədli istiqamətlərdə məqsədli hərəkətini, həmin resurslardan istifadə qaydalarını müəyyən edən hüquqi və normativ qanunvericiliyin yaradılmasını, həmin resurslardan mövcud qaydalara uyğun olaraq istifadə edilməsi üsulu və qaydalarını birləşdirir. Azərbaycan Respublikasında beynəlxalq kapitaldan istifadə istiqamətində həm ixracatçılar, həm də idxalçılar üçün münbit şərait yarandığından 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatına bu tip kapitalın axınları başlamışdır. Həmin kapital axınları ölkə iqtisadiyyatında yeni iqtisadi sistemə uğurlu transformasiyanı şərtləndirmiş, iqtisadiyyatın bütün sahələrində dinamik inkişafın təmin edilməsində baza rolunu oynamış, dövlətin maliyyə ehtiyatlarının toplanmasında mühüm faktora çevrilmiş, əhalinin sosia rifahının yüksəldilməsində mühüm əhəmiyyətə malik olmuş, ölkədə aparılan iqtisaidi siyasətin həm mikro, həm də makro səviyyədə səmərəli nəticələnməsində əsas aparıcı qüvvəyə çevrilmişdir.

**5)** Tərəfimizdən aparılan, 2005-2022-cu illəri əhatə edən dövr ərzindəki statistik məlumatlar əsasında tərtib edilən qiymətləndirmə əsasında məlum olmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə qlobal iqtisadiyyatda hərəkət edən beynəlxalq kapitalın həcminin 1% artması qlobal ÜDM-in 0,12% artması ilə nəticələnir. Eyni zamanda müəyyən edilmişdir ki, qlobal ÜDM-dəki dəyişmələrin 98,3%-i modelə daxil edilmiş göstəricilər - beynəlxalq kapitalın hərəkəti və əvvəlki ilin qlobal ÜDM həcmindəki dəyişmələrlə izah olunur. ($R^2$ =0,983).

2000-2022-cu illərin statistik məlumatları əsasında tədqiqatla sübut olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların həcminin 1% artması ölkə ÜDM-nin 0,22% artması ilə nəticələnir, daxili investisiyalarda isə bu göstərici 0,28%-dir. Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycan ÜDM-dəki dəyişmələrin 99,4%-i modelə daxil edilmiş göstəricilər, daxili və xarici investisiya qoyuluşları, həmçinin əvvəlki ilin ÜDM- həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ =0,984).

**6)** 2009-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, digər dəyişənlərin sabit qalması şərti ilə Azərbaycanın qeyri-neft iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminin 1% artması bir il sonra ölkədə qeyri-neft ÜDM-in 0,12% artması ilə nəticələnir. Eyni zamanda müəyyən

olunmuşdur ki, Azərbaycanın qeyri-neft ÜDM-indəki dəyişmələrin 99,9%-i modelə daxil edilmiş dəyişənlər - qeyri-neft iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi və əvvəlki ilin qeyri-neft ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ =0,999).

2009-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə Azərbaycanın qeyri-neft iqtisaidyyatına qoyulan xarici maliyyə kreditlərinin həcminin 1% artması növbəti ildə ölkədə qeyri-neft ÜDM-nin 0,13%artması ilə nəticələnir. Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycanın qeyri-neft ÜDM-indəki dəyişmələrin 99,96% modelə daxil edilmiş dəyişənlər - qeyri-neft iqtisadiyyatına qoyulan xarici maliyyə kreditləri (bir illik laq ilə) və əvvəlki ilin qeyri-neft ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ =0,9996).

**7)** 2009-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə Azərbaycanın qeyri-neft iqtisaidyyatına qoyulan birbaşa xarici investisiyaların həcminin 1% artması növbəti ildə ölkədə qeyri-neft ÜDM-nin 0,05% artması ilə nəticələnir. Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycanın qeyri-neft ÜDM-dəki dəyişmələrin 99,9%-i modelə daxil edilmiş dəyişənlər - qeyri-neft iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar (bir illik laq ilə) və əvvəlki ilin qeyri-neft ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ =0,999).

2009-2022-cu illərin statistik məlumatları əsasında qiymətləndirmə nəticəsində müəyyən olunmuşdur ki, digər dəyişənlərin sabit qalması şərti ilə Azərbaycan iqtisadiyyatına qoyulan xarici kapital qoyuluşlarının həcminin 1% artması növbəti ildə ölkə ÜDM-nin 0,14% artması ilə nəticələnir, daxili kapital qoyuluşlarındakı 1% artım isə həmin il ÜDM-i 0,20% artırır. Eyni zamanda müəyyən olunmuşdur ki, Azərbaycan ÜDM-indəki dəyişmələrin 99,1%-i modelə daxil edilmiş göstəricilər ölkə iqtisadiyyatına daxili (bir illik laq ilə) və xarici kapital qoyuluşları, həmçinin əvvəlki ilin ÜDM həcmindəki dəyişmələrlə izah olunur ($R^2$ =0,991).

**8)** Beynəlxalq kapitalın Azərbaycan Respublikasının iqtisadiyyatına cəlb edilməsi mühitinin və mexanizminin müasir vəziyyətinin təhlil edilməsi və beynəlxalq kapitaldan istifadənin

nəticələrinin qiymətləndirilməsi əsasında tədqiqat işində bu vəsaitlərdən istifadə mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir. Həmin istiqamətlərin hər biri həm yaxın dövr üçün, həm də strateji planda uzunmüddətli dövr üçün ölkə iqtisadiyyatında səmərəli nəticələr yarada bilən istiqamətlərdir. Onlara aşağıdakıları aid etmək olar: sənayenin aparıcı sahələrinin davamlı şəkildə sürətlə inkişaf etdirilməsi, su və enerji təchizatı problemlərinin həll edilməsi, dövlət strukturunda davamlı islahatların aparılması, maliyyə sisteminin, eləcə də bank sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, istitusional və monetar idarəetmə məsələləri üzrə potensialın artırılması, dövlət xərclərinin idarə olunması, iqtisadi siyasətin prioriteti olan diversifikasiyanın gücləndirilməsi, maliyyə əlçatanlığının təmin edilməsi və s.

**9)** Tərəfimizdən aparılan geniş təhlillər nəticəsində Azərbaycanda beynəlxalq kapitaldan səmərəli istifadənin və dinamik inkişafın təmin edilməsinin prioritet istiqamətləri müəyyən edilmişdir. Bu istiqamətdə investisiya fondlarının, transmilli şirkətlərin, bu tipli digər təşkilatların yaradılması və onların fəaliyyətindən geniş istifadə olunması təklif olunmuşdur. Beynəlxalq kapitaldan istifadə edilən sahələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi vasitəsilə həm beynəlxalq kapitaldan səmərəli istifadə edilməsi, həm də dinamik inkişafın təmin edilməsinin mühüm istiqaməti kimi müəyyən edilmişdir.

**10)** İşğaldan azad edilən ərazilərin iqtisadi inkişanın mühüm tərkib hissəsinin – repatriasiya və reinteqrasiya prosesinin səmərəliliyini təmin etmək üçün zəruri tədbirlər : "Ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji zonası" yaradılması kimi innovativ layihələri, sosial-texniki infrastruktur, "elektron hökumət"ə inteqrasiya olunmuş, müxtəlif qurumlara aid servislərdən istifadə etməklə yeni qurulmuş "Qayıdış və reinteqrasiya" elektron idarəetmə sistemi ilə aparmağa hazırlaşır. Bütün bu proseslər sonda dayanıqlı məskunlaşmaya, məşğulluğun təmin olunmasına, rifah halının yüksəldilməsi ilə nəticələnməlidir.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən elmi əsərlər aşağıdakı nəşrlərdə dərc olunmuşdur:**

1. И.И.Мамедов: "Роль международного капитала в обеспечении динамичного развития в Азербайджане" // Сборник

статей по материалам LXII Международной Научно-практической конференции «Инновационны подходы в современной науке». Москва: – 2020, №2(62), –стр.125-129
2. İ.İ.Məmmədov: “ Beynəlxalq kapitalın cəlb edilməsinə dair nəzəri yanaşmalar.” // Naxçıvan Dövlət Universiteti – Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu – Respublika Elmi Konfransının materialları – 2020. səh.74-78
3. İ.İ.Məmmədov: “Azərbaycan Respublikası iqtisadiyyatında Beynəlxalq kapitalın rolu” // Naxçıvan Universiteti Elmi əsərləri – 2018. №3 (10), –səh.37-43
4. İ.İ.Məmmədov: “Xarici investisiyaların və beynəlxalq maliyyə kreditlərinin dinamik inkişafa təsiri” // Naxçıvan Universiteti Elmi əsərləri – 2018, №4(11), –səh.54-58
5. İ.İ.Məmmədov: “Azərbaycan Respublikasının beynəlxalq maliyyə təşkilatları ilə əlaqələri” // Maliyyə və uçot jurnalı, – 2018 / 07 (314) iyul, – səh.22-27
6. İ.İ.Məmmədov: “Azərbaycanda bankların xarici iqtisadi fəaliyyətinin inkişaf istiqamətləri // Azərbaycan Kooperasiya Universiteti, “Kooperasiya” elmi-praktiki jurnal,– 2018, №1(48), –səh.136-141
7. И.И.Мамедов: «Направления развития внешнеэкономической деятельности банков Азербайджана» // Экономика и предпринимательство, –2017, №8(ч.3),– стр.1194-1197. www.intereconom.com
8. İ.İ.Məmmədov: “Bank fəaliyyətinin beynəlxalq iqtisadi münasibətlərə təsiri” // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunan “Heydər Əliyev irsi: Müasir dövrdə İslam Həmrəyliyi” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. –Bakı: 10 may 2017-ci il, –səh.136



Dissertasiyanın müdafiəsi “30” may 2025-ci il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında www.unec.edu.az yerləşdirilmişdir.

Avtoreferat “28 ” aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.04.2025
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (44475 işarə)
Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində hazır diopozitivlərdən istifadə* olunmaqla *çap edilmişdir.*

*Əlaqə üçün:* capevi@internet.ru *Tel.: +994552012809*